AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

24 İYUL 2018-ci il ÇƏRŞƏNBƏ AXŞAMI № 161 (6194) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Masallı rayonunun Şatıroba-Hişkədərə-Miyanku-Kubin-Birinci Səmədxanlı-Xallıcalı-Əminli-Məmmədxanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Otuz iki min nəfər əhalinin yaşadığı 22 yaşayış məntəqəsini birləşdirən Şatıroba-Hişkədərə-Miyanku-Kubin-Birinci Səmədxanlı-Xallıcalı-Əminli- Məmmədxanlı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 7,5 milyon (yeddi milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 iyul 2018-ci il.**

## "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 mart tarixli 2708 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 mart tarixli 2708 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, N 12, maddə 203; 2009, N 7, maddə 589; 2012, N 2, maddə 118, N 12, maddə 1293; 2014, N 2, maddə 112, N 6, maddə 644; 2016, N 8, maddə 1384, N 9, maddə 1518; 2017, N 9, maddə 1705) 1-ci hissəsi ilə yaradılmış Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası energetika nazirinin müavini

Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini

Azərbaycan Respublikası təhsil nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri.".

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Bolqarıstan Respublikası tərəfinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 23 iyul 2018-ci il.**

## Azərbaycan və İtaliya strateji tərəfdaşlığını rəsmən təsdiq etdi

### *Dövlətimizin başçısı bildirib ki, ölkələrimizin tərəfdaşlığının təməlində birgə maraqlar, beynəlxalq məsələlərə ortaq münasibət dayanır*

**Cənab Sercio Mattarella Azərbaycana səfər edən ilk İtaliya Prezidentidir. Dövlətimizin başçısı cənab İlham Əliyevin dəvəti ilə cənab Sercio Mattarellanın ölkəmizdə rəsmi səfərdə olması və prezidentlərin xoş münasibətləri dövlətlərimiz arasında yüksək səviyyədə olan ikitərəfli əməkdaşlığın nəticəsidir. Prezidentlərin təkbətək və geniş tərkibdə keçirilən görüşlərində ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər istiqamətlərdə uğurlu inkişaf etməsinin vurğulanması qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsinin aparılması, rəsmi səfərin iki ölkə əlaqələrinin genişləndirilməsinə töhfə verəcəyinə əminliyin ifadə olunması münasibətlərin böyük önəm daşıdığını göstərir.**

Azərbaycan-İtaliya əlaqələrinin çoxşaxəli olduğunu, bir çox sahələri əhatə etdiyini vurğulayan dövlət başçısı cənab İlham Əliyev bildirib ki, aparılan danışıqlarda, keçirilən görüşlərdə bir çox məsələlər müzakirə olundu. Regional inkişaf və regional təhlükəsizlik məsələləri, Avropa İttifaqı Azərbaycan əlaqələri, siyasi, iqtisadi ikitərəfli əlaqələrimiz və bir çox məsələlər müzakirə edildi. Bütün məsələlərlə bağlı bizim fikirlərimiz üst-üstə düşür.

Məlumat üçün bildirək ki, Avropa İttifaqına üzv doqquz ölkə ilə, o cümlədən İtaliya ilə strateji tərəfdaşlıq haqqında bəyannamələr imzalanıb. 2014-cü ildə İtaliya ilə Azərbaycan arasında Birgə Bəyannamə qəbul edilib. Bu, çox ciddi siyasi sənəddir, əslində bu, iki dövlət arasındakı münasibəti və gələcək əməkdaşlıq formatını göstərir və müəyyən edir. Hazırda İtaliya ilə Azərbaycanın ticarət əlaqələri çox yüksək səviyyədədir. İtaliya şirkətləri Azərbaycanın inşaat sektorunda, kənd təsərrüfatı sahəsində, ağır sənaye sahəsində bir çox layihələri yüksək səviyyədə icra ediblər. İtaliya Prezidentinin səfəri çərçivəsində ölkəmizdə açılışı keçirilən Polipropilen Zavodunun inşasında İtaliya şirkətinin fəal iştirakını xüsusi qeyd etmək olar. Azərbaycanın neft-kimya sənayesi üçün böyük önəm kəsb edən "SOCAR Polymer" layihəsi ətraf mühit və təhlükəsizlik standartlarına tam əməl olunmaqla və yüksək keyfiyyətlə yerinə yetirilib. Qeyd edək ki, SOCAR-ın emal zavodları vahid iqtisadi dəyər zəncirində bir-biri ilə sıx bağlıdır. Heydər Əliyev adına Neft Emalı Zavodu, "Azərikimya" İstehsalat Birliyinin Sumqayıtdakı etilen-polietilen zavodu və "SOCAR Polymer" zavodunun bu istehsal prosesinə inteqrasiyası kompleksə daxil olan müəssisələrin işini daha da səmərəli edəcək. "SOCAR Polymer" zavodunun bütün inşaat işlərini İtaliyanın məşhur "Maire Tecnimont" şirkəti yüksək səviyyədə həyata keçirib.

Prezidentlərin görüşündə və bəyanatlarında vurğulandığı kimi, Polipropilen Zavodunun istifadəyə verilməsi nəticəsində Azərbaycanın ixrac potensialı böyük dərəcədə artacaq. Müəssisədə istehsal olunacaq 300 min ton məhsulun 70 faizi xarici bazarlara ixrac ediləcək. Bununla ölkənin böyük həcmdə qeyri-neft ixracı yaradılacaq.

"Maire Tecnimont" şirkətinin imkanları və texnologiyası hesabına Azərbaycanın sənaye sahəsinin inkişafına verdiyi töhfədən dərin məmnunluq hissi keçirdiyini vurğulayan şirkətin prezidenti Fabrizio di Amato bildirib ki, bu layihə hesabına "SOCAR Polymer" Azərbaycanda ilk dəfə olaraq polipropilen və polietilen istehsal edəcək. Bu nəinki neft kimyası sahəsində, digər sahələrdə də əməkdaşlığın başlanğıcıdır. Bu zavodun tikintisində, istifadə olunan texnologiyalar İtaliyanın ən müasir texnologiyalarına aid edilir. Bu zavod iqtisadiyyatın inkişafında və Azərbaycanın sənayesində böyük rol oynayacaq. Çünki bu zavod təbii ehtiyatlardan istifadə hesabına fəaliyyət göstərəcək. Bu, Azərbaycan ilə İtaliyanın sənaye sahəsində əməkdaşlığında çox mühüm addımdır.

Bu gün İtaliya Azərbaycanın əsas xarici ticarət tərəfdaşlarından biridir. Belə ki, 2017-ci ildə ölkəmizin xarici ticarət dövriyyəsində İtaliya 21 faiz paya malik olmaqla ilk yerdə qərarlaşıb və bu ilin ilk 6 ayı ərzində də liderliyini qoruyub saxlayıb. İtaliyaya ixrac olunan məhsulların böyük hissəsini enerji daşıyıcıları təşkil edir, qarşılıqlı ticarətin şaxələndirilməsi və qeyri-neft məhsullarının payının artırılması istiqamətində özəl sektorun iştirakı ilə keçirilən biznes forumlarını, işgüzar görüşlərin önəmi böyükdür.

İtaliya Prezidentinin səfəri çərçivəsində Bakıda keçirilən Biznes forumda Azərbaycan və İtaliya tərəfindən rəsmi şəxslərlə yanaşı, enerji, tikinti, dizayn və memarlıq, infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, logistika, mühəndislik və sənaye sahələrində fəaliyyət göstərən 350-dək iş adamı iştirak edib. Bu forumda italyan şirkətlərinin geniş tərkibdə iştirakı ölkəsində kifayət qədər tanınan kiçik və orta tipli müəssisələrə də diqqət ayıraraq əlaqələri daha da genişləndirmək məqsədi daşıyır.

Azərbaycan inkişaf proqramları və iqtisadiyyatın şaxələndirilməsində İtaliyanın tərəfdaşlığına güvənə bilər, — deyən cənab Sercio Mattarellanın fikrincə, Azərbaycan kimi xammalla zəngin olan ölkə üçün bu, sənaye dinamizmi və texnoloji innovasiyalar amili kimi qəbul edilməlidir: "Bilirəm ki, Azərbaycan hökuməti iqtisadiyyatın şaxələndirilməsi və ölkənin müxtəlif regionlarının inkişafı üçün prioritet sahə olan kənd təsərrüfatına çox böyük önəm verir. Bu, mənim fikrimcə, uzaqgörən seçimdir və İtaliya bu sahədə olan təcrübəsini və imkanlarını təklif edərək bunu dəstəkləməyə hazırdır".



İtaliya Prezidenti bildirib ki, bizim müştərək iqtisadi maraqlarımız ölkəmizlə Avropa İttifaqı arasında olan əməkdaşlıqdan irəli gələn imkanlardan istifadə edərək dialoqumuzu daha da inkişaf etdirərək genişləndirməyə yönəldir.

İtaliya-Azərbaycan biznes forumunun qarşıda yeni imkanlar açdığını bəyan edən cənab İlham Əliyev vurğulayıb ki, bu gün gündəlikdə olan məsələlərlə bağlı bizim heç bir fikir ayrılığımız yoxdur. Bütün məsələlərlə bağlı fikirlərimiz üst-üstə düşür. Azərbaycan İtaliya üçün, İtaliya Azərbaycan üçün çox etibarlı tərəfdaşdır.

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

## Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib

**Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun konstitusiya məhkəmə icraatı qaydasında növbəti açıq məhkəmə iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda "Az İmport" Məhdud Məsuliyyətli Cəmiyyətinin şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2017-ci il 29 dekabr tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim R.Qvaladzenin məruzəsini və ərizəçinin vəkilinin çıxışını dinləyib, işin materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Ə.Heydərovun "Az İmport" Məhdud Məsuliyyətli Cəmiyyəti və İ.İmanova qarşı vurulmuş maddi zərərin ödənilməsi tələbinə dair iş üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2017-ci il 29 dekabr tarixli qərarı Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə, 127-ci maddəsinin II, IV və VII hissələrinə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 416-cı, 418.1-ci və 418.3-cü maddələrinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilsin. İşə bu Qərara uyğun olaraq Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və müddətdə yenidən baxılsın.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

**AZƏRTAC**

## Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, vətəndaş S.Mehdiyevanın məhkəmə aktlarından verdiyi şikayətə baxılaraq, Konstitusiya Məhkəməsi Plenumunun icraatına qəbul olunması haqqında qərardad çıxarılıb.

Şikayətə mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun sentyabrın 14-nə təyin edilmiş iclasında baxılacaq.

**AZƏRTAC**

*XİN:*

## Beynəlxalq münasibətlərdə və münaqişələrin həlli prosesində qanunun aliliyinin təmini mütləq xarakter daşıyır

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının üzvlərini qəbul edərkən əhatəli və əsaslı şəkildə ölkəmizin işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi əməlləri qeyd edib. Xarici İşlər Nazirliyi tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər əməllər haqqında hesabat və "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlərlə bağlı üçüncü tərəflərin məsuliyyətinə dair hüquqi rəy" kimi fundamental sənədlər hazırlanıb.**

AZƏRTAC xəbər verir ki, bunu XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev iyulun 23-də keçirdiyi mətbuat konfransında deyib.

Qeyd edilib ki, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətləri aşağıdakı istiqamətlər üzrə təsnif edilir: İşğal olunmuş ərazilərdə məskunlaşmanın aparılması; Azərbaycanın təbii sərvətlərinin istismarı və ticarəti; İqtisadi və maliyyə fəaliyyətləri; İnfrastruktur dəyişikliklər və telekommunikasiya şəbəkəsinin istismarı; İşğal edilmiş ərazilərin mədəni xarakteri və irsinin dəyişdirilməsi; İşğal edilmiş ərazilərin turizm məkanı kimi təşviq edilməsi, qeyri-qanuni səfərlərin təşkili və digər fəaliyyətlər.

Hikmət Hacıyev deyib: "Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni əməllərin həyata keçirilməsinə məsuliyyət daşıyan tərəfdir. Bu qeyri-qanuni əməllərin bir qismi beynəlxalq hüququn imperativ normalarından irəli gələn öhdəliklərin ciddi surətdə pozulmasıdır. Bu sıraya aşağıdakılar daxildir:

- BMT Nizamnaməsini pozaraq Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və digər rayonlarının de-fakto ayrılmasını təmin etmək üçün gücdən istifadə;

- Bu xüsusda Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün pozulması;

- İşğal olunmuş ərazilərdə etnik təmizləmənin aparılması, məskunlaşma məntəqələrinin yaradılması və əhalinin köçürülməsinin təmin edilməsi bu ərazilərin demoqrafik tərkibinin dəyişdirilməsi;

- Hərbi işğala dair hüququn, xüsusilə "Quruda müharibənin aparılması qanunları və adətləri" haqqında 1907-ci il Haaqa Konvensiyası ilə bağlı Qaydaların 43-cü bəndi, 1949-cu il "Müharibə zamanı mülki şəxslərin müdafiəsi"nə dair Cenevrə Konvensiyasının 49-cu maddəsinin kobud şəkildə pozulması;

- İşğaldan əvvəl həmin ərazidə yaşayan insanların maraqlarının aliliyini nəzərə almadan işğal olunmuş ərazilərin təbii resurslarının istismar edilməsi;

- Ərazinin mədəni irsinin dəyişdirilməsi.

Beynəlxalq hüququn imperativ normalarının sadalanan ciddi pozuntusu ağırlaşdırılmış məsuliyyətlə nəticələnən xüsusi halların tətbiq edilməsini nəzərdə tutur. Bu sıraya daxildir:

- Bu kimi pozuntular nəticəsində yaranmış vəziyyətin tanınmaması;

- Bu vəziyyətin saxlanması üçün hər hansı yardımın göstərilməsinin qadağan olunması;

- Bu kimi pozuntuları etmiş şəxslərin hər hansı immunitetdən məhrum edilməsi;

- Ağırlaşdırılmış məsuliyyət kimi bütün Dövlətlər tərəfindən Ermənistanı məsuliyyətə cəlb etmək və ona qarşı tədbirlərin görülməsi, o cümlədən sanksiyaların tətbiq edilməsi, cinayət və mülki işlərin açılması.

Beynəlxalq münasibətlərdə və münaqişələrin həlli prosesində qanunun aliliyinin təmin olunması mütləq xarakter daşıyır.

Bütün beynəlxalq ictimaiyyəti, müvafiq beynəlxalq təşkilatları, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrini, əcnəbi hüquqi və fiziki şəxsləri "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlərlə bağlı üçüncü tərəflərin məsuliyyətinə dair hüquqi rəy" və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hüquqi aspektləri ilə bağlı Azərbaycanın təqdim etdiyi digər fundamental hüquqi hesabatları nəzərə almağa çağırırıq".

**AZƏRTAC**

# Azərbaycan ilə Latviya arasında hüquqi əlaqələr inkişaf edir

**Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan hüquqi islahatlar çərçivəsində qabaqcıl xarici təcrübələrin öyrənilməsinə, beynəlxalq əlaqələrin inkişafına böyük önəm verilərək xarici ölkələrin, o cümlədən Avropa İttifaqı dövlətlərinin ədliyyə qurumları ilə səmərəli əməkdaşlıq həyata keçirilir. Ötən il Azərbaycan və Latviya Ədliyyə nazirliklərinin nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, iki qurum arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması bu sahədə qarşılıqlı fəaliyyətin dərinləşdirilməsinə böyük təkan verib.**




Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, memorandumun implementasiyası çərçivəsində nümayəndə heyətlərinin mübadiləsi aparılır, birgə tədris tədbirləri keçirilir, qarşılıqlı müsbət təcrübələr öyrənilir.

Əməkdaşlığın davamı kimi, Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Latviyada səfərdə olub.

Səfər zamanı Azərbaycanın və Latviyanın ədliyyə nazirləri Riqada "Azadlıq" abidəsini ziyarət edib, Latviyanın müstəqilliyi uğrunda həlak olanların xatirəsini yad ediblər.

Latviyanın ədliyyə naziri Dzintars Rasnaçs ilə keçirilmiş görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, dövlət başçılarının qarşılıqlı səfərlərinin bu əlaqələrin möhkəmlənməsində xüsusi rolu qeyd edilib, iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub.

Dövlətimizin başçısının təsdiq etdiyi Strateji Yol xəritələrindən irəli gələn vəzifələrə uyğun olaraq mübahisələrin məhkəmədən kənar alternativ həllində mühüm rol oynayan mediasiya institutunun yaradılması prioriteti nəzərə alınaraq, nümayəndə heyətimiz bu ölkənin Mediasiya Şurasının rəhbərliyi ilə görüşüb. Görüşdə bu sahədə Latviyada işin təşkili ilə maraqlanılıb, mediasiyanın tətbiqi imkanları, onun vətəndaşlar üçün üstünlükləri, mediatorların hazırlanması və s. məsələlərlə bağlı təqdimat keçirilərək səmərəli fikir mübadiləsi aparılıb.

Azərbaycan Prezidentinin cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamına əsasən, azadlıqdan məhrumetməyə alternativ cəzaların səmərəli icrasının təşkili məqsədilə Probasiya xidmətinin yaradılması, o cümlədən elektron nəzarət vasitələrinin tətbiqinə başlanılması nəzərə alınaraq bu sahədə zəngin təcrübəyə malik Latviyanın Dövlət Probasiya xidmətinin rəhbərliyi ilə görüş keçirilib, qurumun fəaliyyətinə dair müzakirələr aparılıb, xidmətin regional qurumları, elektron monitorinq sistemi ilə əyani tanış olub.

Eyni zamanda, məhkəmə qərarlarının səmərəli icrasının əhəmiyyəti nəzərə alınaraq, bu sahədə Latviyanın təcrübəsi öyrənilib, o cümlədən icra zamanı uşaq hüquqlarının qorunmasına dair yeni mexanizmlərin tətbiqi üzrə müzakirələr aparılıb və təqdimatlar keçirilib.

Həmçinin səfər zamanı hər iki dövlətdə məhkəmə-hüquq sistemində aparılan islahatlar və yeniliklərdən bəhrələnmək imkanları araşdırılıb, ədliyyə fəaliyyətində "süni intellektin" tətbiqi, vətəndaşlara xidmətlərin videokonfrans vasitəsilə göstərilməsi xüsusi maraq doğurub.

Tədbirlərdə Azərbaycanın Latviyadakı səfiri Cavanşir Axundov iştirak edib.

**AZƏRTAC**

# Azərbaycan HHQ-nin döyüş imkanlarını daha da gücləndirəcək birgə layihələr müzakirə olunub

**İyulun 23-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Aviasiya və Kosmik Sənaye Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Temel Kotilin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi-texniki əməkdaşlıq çərçivəsində aviasiya sahəsində ekspert qruplarının qarşılıqlı səfərlərinin təşkili, mütəxəssislərin təcrübə mübadiləsi, hərbi təhsil və maraq doğuran digər məsələlər müzakirə olunub.

Tərəflər hərbi sahədə müxtəlif proqramların, o cümlədən Azərbaycan Hərbi Hava Qüvvələrinin imkanlarını daha da gücləndirəcək yeni nəsil döyüş təyyarə və helikopterlərin öyrənilməsi və tətbiqi üzrə birgə layihələrin həyata keçirilməsi məsələlərinə də toxunub.

**AZƏRTAC**

# Müdafiə Sənayesi Nazirliyi ilə "Turkish Aerospace" şirkəti arasında əməkdaşlıq əlaqələrinin yaradılmasına dair müzakirələr aparılıb

**İyulun 23-də müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev Türkiyənin aeronavtika və kosmonavtika sahəsi üzrə ixtisaslaşmış "Turkish Aerospace" şirkətinin baş direktoru Təməl Kotilin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti ilə görüşüb.**



Müdafiə Sənayesi Nazirliyindən (MSN) AZƏRTAC-a bildiriblər ki, görüşdə Yəhya Musayev Azərbaycan ilə qardaş Türkiyə arasındakı əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirib. Nazir müavini MSN-in fəaliyyəti barədə nümayəndə heyətinə ətraflı məlumat verib, Türkiyənin müvafiq qurumları ilə bu sahədə mövcud əməkdaşlıq əlaqələrindən danışıb.

Görüşdə Müdafiə Sənayesi Nazirliyi ilə "Turkish Aerospace" şirkəti arasında əməkdaşlıq əlaqələrinin yaradılmasına dair geniş müzakirələr aparılıb.

Nümayəndə heyətinin başçısı Təməl Kotil səmimi görüşə görə minnətdarlığını bildirib.

**AZƏRTAC**

# Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Ağdamın işğal günü ilə bağlı tədbir keçirilib



**İyulun 23-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Ağdamın Ermənistan silahlı birləşmələri tərəfindən işğalının 25-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.**

Komitədən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Azərbaycanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dövlət Komitəsinin sədri Rövşən Rzayev Qarabağ bölgəsinin strateji baxımdan ən mühüm inzibati ərazilərindən olan Ağdam rayonunun tarixi keçmişindən, vaxtilə respublikamızın iqtisadi-mədəni həyatında tutduğu mövqedən, ağdamlıların müxtəlif sahələrdəki uğurlarından və torpaqlarımızın müdafiəsi uğrunda göstərdikləri şücaətlərdən danışıb. Qeyd edilib ki, Ermənistan silahlı birləşmələrinə qarşı döyüşlər zamanı rayonda 6 min nəfərə yaxın həmvətənimiz şəhid olub. Rayonun 16 Milli Qəhrəmanı var. Təcavüzkarlar Ağdam şəhərini və 82 yaşayış məntəqəsini, bu ərazilərdəki tarixi-mədəni abidələri dağıdıb, yeraltı və yerüstü sərvətləri talan ediblər. Həmin dövrdə 143 min ağdamlı öz doğma yurdundan didərgin düşüb. Hazırda ümumi sayı 198.600 nəfər olan əhalinin 90 min nəfərə qədəri rayonun öz ərazisində yaşayır, 101.000 min nəfər məcburi köçkün isə respublikanın 62 şəhər və rayonunda müvəqqəti məskunlaşıb.

BMT Təhlükəsizlik Şurası Ağdamın işğalını pisləyən və işğalçı ordunun zəbt olunmuş ərazilərdən dərhal çıxarılmasını tələb edən 853 saylı qətnamə qəbul edib. Lakin təəssüf ki, digər qətnamələr kimi o da indiyədək yerinə yetirilmir, Ermənistanın regiondakı işğalçılıq siyasəti davam edir.

Dövlət Komitəsinin sədri əlavə edib ki, ulu öndər Hydər Əliyvin diqqəti və qayğısı nəticəsində ötən əsrin 70-80-ci illəri Ağdamın da tarixinə inkişaf və tərəqqi dövrü kimi düşüb. Bu gün isə Prezident İlham Əliyevin göstəriş və tapşırıqları əsasında rayonda quruculuq və yenidənqurma işləri aparılır. Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarına əsasən 2003-2014-cü illərdə rayonun ərazisində salınmış 18 qəsəbədəki evlərdə 6937 məcburi köçkün ailəsi olmaqla 26380 nəfər yaşayır. Birinci vitse-prezident xanım Mehriban Əliyeva məcburi köçkünlərin problemlərinin həllini, bununla bağlı həyata keçirilən layihələrin icrasını daim diqqətdə saxlayır.

Digər çıxışlarda da xalqımızın birliyi, müstəqil dövlətimizin gücü və qüdrəti, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi sayəsində Qarabağ bölgəsinin, o cümlədən Ağdamın tezliklə işğaldan azad ediləcəyinə dərin inam ifadə olunub.

Tədbirdə Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin ərazisi işğal edilmiş rayonlardakı təşkilatlarının rəhbərləri, Ağdam rayonundan olan ziyalılar və keçmiş döyüşçülər iştirak ediblər.

Sonda Ağdam rayonuna həsr edilmiş film nümayiş etdirilib.

**AZƏRTAC**

*Hikmət Hacıyev:*

# Azərbaycan ərazilərinin işğal altında saxlanması heç zaman Ermənistanın güddüyü siyasi nəticələri verə bilməz

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Ağdam rayonunun işğalının 25-ci ildönümü ilə əlaqədar açıqlama yayıb.**





AZƏRTAC xəbər verir ki, bununla bağlı iyulun 23-də keçirilən mətbuat konfransında XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib: "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü zamanı 1993-cü il iyulun 23-də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmayan Ağdam rayonunun inzibati mərkəzi, Aşağı Qarabağın ən böyük şəhərlərindən biri Ağdam işğal olunub.

Təcavüz səbəbindən ümumi ərazisi 1094 kvadratkilometr olan 138 yaşayış məntəqəsindən ibarət Ağdam rayonunun əksər hissəsi zəbt edilib və oranın əhalisi etnik təmizləməyə məruz qalıb. Ermənistan tərəfindən rayonda dövlət və özəl mülkiyyətə ciddi zərər yetirilib. İşğal nəticəsində 122 yaşayış məntəqəsi, 24 min 446 yaşayış binası, 48 sənaye və tikinti müəssisəsi, 160 məktəb binası, 65 səhiyyə mərkəzi, 373 mədəniyyət ocağı, 1 teatr və s. talan və məhv edilib. Ağdamın müdafiəsi zamanı döyüşlərdə 6 minə yaxın rayon sakini şəhid olub. Ağdamın futbol klubu olan "Qarabağ" isə dünya miqyasında didərgin düşmüş komandaların olduqca nadir nümunələrindən birinə çevrilib. Hazırda 200 min nəfər rayon sakinindən 153 min nəfərdən artıq şəxs Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün qismində yaşayır.

İşğal edilmiş ərazilərdəki çoxsaylı tarixi abidələrin xeyli hissəsi məhvə, zahiri görkəminin süni dəyişdirilməsinə və qanunsuz arxeoloji qazıntılara məruz qalıb. Onların arasında Ağdam şəhərinin yaxınlığında e.ə. II minilliyə aid üzərliktəpə abidəsi, Kəngərli kəndindəki VI əsrə aid məbəd və XIV əsrə aid türbə ilə daş abidələri, Xaçındərbənd kəndindəki 1314-cü ilə aid Qutlu Sarı Musaoğlu türbəsi, XVIII-XIX əsrlərdəki Qarabağ xanlığının mirası Şahbulaq qalası, xan sülaləsinin imarəti və məqbərələri və s. qeyd oluna bilər. Ağdamda məşhur Çörək Muzeyi darmadağın edilib, Cümə məscidi tövləyə çevrilib. Bu torpaqların əzəli Azərbaycan əhalisi barədə izlərin silinməsi məqsədilə, işğalçılar tərəfindən Ağdam şəhəri adının da belə dəyişdirilməsi Ermənistanın güddüyü məqsədləri açıq-aşkar nümayiş etdirir".

Hikmət Hacıyev bildirib ki, 1993-cü ilin aprelində Kəlbəcərin işğalı ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822 saylı qətnamədə işğalçı qüvvələrin zəbt olunmuş ərazilərdən çıxarılması üzrə təxirəsalınmaz tədbirlər barədə cədvəlin hazırlanması tapşırılıb. Lakin ATƏM-in (hazırda ATƏT) Minsk Konfransının sədri Mario Raffaellinin 1993-cü il 27 iyul tarixli hesabatında qeyd olunduğu kimi, 1993-cü il 22-23 iyul tarixlərində ATƏM-in Minsk Konfransı 9 iştirakçı ölkəsinin bu məqsədlə Romada keçirdiyi iclas zamanı ermənilər, əvvəlcədən Ağdamı işğal etmək niyyətində olmadıqlarını vəd etsələr də, bu addımı atdılar.

Ağdamın işğalı ilə bağlı dünya ictimaiyyəti yekdil mövqe ifadə etdi. ATƏM-in Minsk qrupunun 9 ölkəsi adından bu "hücum qətiyyətlə pislənmiş", "işğal olunmuş ərazilərdən qoşunların çıxarılmasına çağırış etmişdir". 1993-cü il 29 iyul tarixində BMT-nin Təhlükəsizlik Şurası 853 saylı qətnaməni qəbul edib. Orada da "işğalçı qüvvələrin Ağdam rayonu və digər yenicə işğal edilmiş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması" tələb edildi. Lakin Ermənistan tərəfi buna da tabe olmaqdan yayındı.

"Beləliklə, Ermənistan-Azərbaycan münaqişəsinin hələ o mərhələdə nizama salınmasına dair siyasi fürsətlərdən istifadə etməyə, buna dair yekdilliklə qəbul edilmiş BMT qərarlarının yerinə yetirilməsinə imkan verilməyib və yeni-yeni Azərbaycan ərazilərinin işğalı nəticəsində hazırkı ağır vəziyyət yaradılıb. M.Raffaellinin hesabatında bildirildiyi kimi, "güc yolu ilə işğal olunmuş ərazilərdən qoşunların dərhal çıxarılması sülh danışıqlarının irəli aparılması üçün ən mühüm amildir". Ermənistan tərəfinin tutduğu qeyri-konstruktiv mövqe sayəsində həmin başlıca şərtə əməl olunmaması münaqişənin bu günədək nizama salınmamasının əsas səbəbi olaraq qalır.

İşğalçı Ermənistan Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Ağdam rayonunda coğrafi adların dəyişdirilməsi, oradakı mülkiyyətin talan edilməsi və ərazilərin yandırılması kimi qeyri-qanuni əməllərini davam etdirir.

Ümumiyyətlə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ətraf rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, işğal olunmuş rayonların azərbaycanlı sakinlərinə qarşı etnik təmizləmənin törədilməsi Ermənistanın əsl niyyətinin hərbi təcavüz və işğal yolu ərazi əldə edilməsi olduğunu qabarıq şəkildə nümayiş etdirir.

Ermənistan nəhayət başa düşməlidir ki, Azərbaycan ərazilərinin işğal altında saxlanması heç zaman Ermənistanın güddüyü siyasi nəticələri verə bilməz və işğala əsaslanan status-kvo Ermənistanın özünü təcridinin və bugünkü sistematik sosial-iqtisadi və demoqrafik böhranının əsas səbəblərindəndir. Azərbaycan ərazilərinin işğalına son qoyulması və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması hərtərəfli regional əməkdaşlıq üçün imkanlar aça və davamlı sülhün təmin olunmasına töhfə verə bilər.

Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinin bərpa edilməsi, Ağdam, habelə ölkənin digər işğal olunmuş rayonlarından olan məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaq kimi hüquqlarının təmin edilməsi və ümumilikdə münaqişənin ağır fəsadlarının aradan qaldırılması beynəlxalq ictimaiyyətinin öhdəliyi olmaqla yanaşı, BMT Nizamnaməsində təsbit edildiyi kimi Azərbaycan dövlətinin şəksiz ayrılmaz hüququdur.

Azərbaycan tərəfi münaqişənin tezliklə həlli istiqamətində beynəlxalq səylərinin artırılmasını dəstəkləyərək beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini və vətəndaşlarının pozulmuş hüquqlarını bərpa etmək hüququnu özündə saxlayır",- deyə H.Hacıyev vurğulayıb.

**AZƏRTAC**

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Ağdamın işğalının 25-ci ildönümü ilə əlaqədar bəyanat yayıb

**Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 25-ci ildönümü ilə əlaqədar "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi bəyanat yayıb.**

Bəyanatı AZƏRTAC-a şərh edən "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin Əlaqələndirmə Şurasının sədri, professor Elçin Əhmədov bildirib ki, Ermənistan dövlətinin yürütdüyü təcavüzkar siyasət artıq 30 ildir dünya ictimaiyyətinin gözü qarşısında həyata keçirilir. XX əsrin 80-ci illərinin sonunda ermənilər özlərinin xaricdəki himayədarlarının köməyi ilə "böyük Ermənistan" ideyasını həyata keçirmək üçün yaranmış vəziyyətdən istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair əsassız ərazi iddiaları irəli sürdülər.

Hər dəfə Dağlıq Qarabağa dair ərazi iddiaları kənardan, məhz Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılıb. 1988-ci il fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyası "DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali sovetləri qarşısında vəsatət qaldırmaq barədə" qərar qəbul etdi. Bunun ardınca, Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Azərbaycanın suverenliyini kobud surətdə pozaraq DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında Konstitusiyaya zidd daha bir qərar qəbul etdi. DQMV Xalq Deputatları Sovetinin vilayətin Azərbaycan SSR tərkibindən çıxması və Ermənistan SSR tərkibinə daxil edilməsi haqqındakı qərarı hüquqazidd və Konstitusiya əleyhinə bir qərar idi. Respublikaların sərhədlərinin dəyişdirilməsi cəhdləri həm SSRİ, həm də Azərbaycan SSR Konstitusiyalarına zidd olduğundan buna heç cür haqq qazandırıla bilməzdi və bu, Azərbaycan SSR-in dövlət suverenliyinin pozulması demək idi.

Sovet rəhbərliyinin çox ciddi və bağışlanılmaz səhvləri və ermənipərəst siyasəti 1990-cı ilin sonu - 1991-ci ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxardı, DQMV və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha geniş miqyas aldı. XX əsrin sonunda bütün dünyanın gözü qarşısında baş verən, qəddarlığı və amansızlığı ilə seçilən Xocalı soyqırımı isə bu təcavüzkar siyasətin ən qanlı və yaddaşlardan silinməyən səhifəsi olub.

1993-cü il iyulun 23-də Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan kənarda yerləşən qədim Azərbaycan şəhəri Ağdamı da zəbt etdilər. Nəticədə 1094 kvadratkilometr ərazisi, işğal zamanı 165 mindən çox nəfər əhalisi və 123 kəndi olan Ağdam rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Hazırda Ağdam rayonunun Quzanlı qəsəbəsi və 44 kəndi Azərbaycanın nəzarətindədir və həmin ərazilərdə 92 min əhali (41 min yerli, 51 min məcburi köçkün) məskunlaşıb. Ağdam şəhəri və 123 kəndin 79-u Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

Bununla yanaşı, işğal nəticəsində Ağdam rayonu ərazisindəki memarlıq abidələri bütünlüklə talan edilib, yandırılıb, dağıdılıb və məhv edilib. Tarixi və memarlıq abidələrindən Ağdam şəhərinin şimal-qərbində Xındırıstan kəndində yrləşən üzərliktəpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Musa oğlu günbəzi (1314-cü il), Salahlı-Kəngərli kəndindəki türbə və daş abidələri (XIV əsr), Papravənd kəndindəki Xanoğlu türbəsi (XVII əsr), türbələr və məscid (XVIII əsr), Qarabağ xanı Pənahəli və onun nəslinin Ağdam şəhərindəki imarəti (XVIII əsr), o cümlədən Xan qızı Xurşidbanu Natəvanın və onun oğlunun türbələri, Şahbulaq ərazisində Şahbulaq qalası və karvansara, eləcə də rayonun ərazisində mövcud olan çoxlu sayda tarixi, mədəni və dini abidələr məhv edilib. Bununla yanaşı, Ağdamda bütün dünyada yeganə olan "Çörək muzeyi" ilə yanaşı, Ağdam şəhərinin mərkəzində yerləşən qədim memarlıq abidəsi sayılan Məscid və onun minarələri də erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılıb.

Bundan əlavə, işğaldan əvvəl Ağdamda 1898 sayda sosial-iqtisadi tikinti obyekti, 17 sənaye, 31 tikinti, 753 ticarət, 397 ictimai iaşə, 220 məişət müəssisəsi, 480 sosial bina, 24 min 446 yaşayış tikilisi, həmçinin 54 məktəbəqədər uşaq, 116 ümumtəhsil müəssisəsi, bir neçə ali məktəb filialı, 13 mədəniyyət evi, muzeylər, 109 mədəniyyət klubu fəaliyyət göstərib.

Dağlıq Qarabağın erməni icmasının öz müqəddəratını təyin etmək cəhdi kimi qələmə verdiyi Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox əhali öz doğma torpağından məcburən köçkün düşüb və ermənilərin həyata keçirdiyi bu işğalçılıq siyasəti kütləvi qırğınlarla müşayiət olunub. Belə ki, 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 min azərbaycanlı həlak olub, 100 min nəfərdən çoxu yaralanıb, 50 min nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olub. XX əsrin sonunda monoetnik dövlət yaratmağa nail olan Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun inzibati ərazisinə aidiyyəti olmayan Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri işğal edilib. Bütün bu ərazilər ermənilər tərəfindən etnik təmizləməyə məruz qalıb.

Ümumilikdə, 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın tarixi, memarlıq və dini abidələri, xüsusilə, 600-dən çox tarixi və memarlıq abidəsi, onlardan 144 məbəd və 67 məscid Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə dağıdılıb. Bununla yanaşı, 40 min eksponatın qorunduğu 22 muzey, 927 kitabxanada 4,6 milyon kitab və qiymətli tarixi əlyazmalar məhv edilib, o cümlədən Azərbaycanın tarixi irsinə aid olan qiymətli nümunələr muzeylərdən oğurlanaraq sonradan müxtəlif hərraclarda satılıb.

Ermənistan Respublikası tərəfindən Azərbaycanın ərazi bütövlüyünün pozulması, dünya mədəniyyətinin nümunələri sayılan memarlıq abidələrinin dağıdılması və mənimsənilməsi, insan hüquqlarının, o cümlədən mədəni hüquqların kütləvi şəkildə, kobudcasına pozulması beynəlxalq hüquq normalarına və prinsiplərinə tamamilə ziddir. Azərbaycanın tarixi və mədəniyyət, eyni zamanda, dini abidələrinin vəhşicəsinə dağıdılması və qəsdən məhv edilməsi "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyası, eləcə də "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına zidd olsa da, beynəlxalq birlik bu cinayətlərin qarşısının alınmasında qəti mövqe göstərmir, bu vandalizmə ikili standartlarla yanaşır.

Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 25-ci ildönümündə Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin 80 mindən artıq, o cümlədən Ağdam rayonunun 190 mindən çox olan azərbaycanlıları beynəlxalq birliyi Azərbaycan xalqına qarşı bu gün də davam edən təcavüz hərəkətlərinə obyektiv siyasi-hüquqi qiymətin verilməsi üçün ölkəmizin haqlı mövqeyini dəstəkləməyə çağırır.

"Biz humanizm ideyalarının daşıyıcısı olan bütün beynəlxalq təşkilatlardan tələb edirik ki, Ermənistanın işğalçılıq siyasətinin ifşa olunması üçün təsirli tədbirlər görülsün. Bununla yanaşı, Ermənistanın təcavüzünün qurbanı olan bir milyondan çox insanın haqq səsi eşidilsin və pozulmuş hüquqlarımızın bərpa olunması üçün ermənilərin cinayətkar əməlləri beynəlxalq səviyyədə qınaq obyektinə çevrilsin.

Bununla yanaşı, Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilir. BMT Təhlükəsizlik Şurasının sənədlərində işğalçı qüvvələrin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxması qeyd olunsa da, Minsk qrupunun göstərdiyi səylər indiyə kimi Ermənistan Respublikasının açıq-aşkar hərbi işğalçılıq mövqeyi tutması ucbatından təsirli nəticələr verməyib. ATƏT-in regionda sülhpərvərlik fəaliyyətinin uğursuzluqlarının başlıca səbəbi məhz Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının birbaşa təcavüzü faktının etiraf olunmaması ilə bağlıdır.

Bu səbəbdən, münaqişənin nizama salınması prosesində Ermənistanın Azərbaycana təcavüzündən birbaşa danışmadan, işğal etdiyi ərazilərdən çıxmasını tələb etmədən və qəbul edilən sənədlərdə bu barədə heç nə demədən münaqişənin ədalətli həlli yolunda müsbət irəliləyişə nail olmaq çətindir. Ona görə də böyük dövlətlər qəti praktik addımlar atmalı və Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər", - deyə bəyanatda bildirilir.

Bəyanat "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin toplantısında qəbul edilib.

**AZƏRTAC**

*Cari ilin birinci yarısının yekunları*

# Qazax: nəticələr ürəkaçandır





**İyul ayının 8-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş iclasındakı nitqindən irəli gələn vəzifələrlə əlaqədar Qazax rayonunda hesabat yığıncağı keçirilib.**

Tədbirdə **Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov** çıxış edərək bildirdi ki, 2018-ci ilin birinci yarımili Qazax rayonu üçün uğurlu olmuşdur.

Hesabat dövrü ərzində əhalinin elektrik enerjisi və təbii qazla təmin olunması sahəsində müəyyən işlər görülmüşdür.

Rayon üzrə Qazax Elektrik Şəbəkəsi tərəfindən 23876 abonentə xidmət göstərilir. 2018-ci ilin birinci yarımilində Qazax Elektrik Şəbəkəsi tərəfindən rayonu elektrik təchizatı ilə təmin edən 110/35/6 kv-luq Daş Salahlı və Şıxlı yarımstansiyalarında, eləcə də 35/10 kv-luq yarımstansiyalarda olan avadanlıqlarda cari təmir işləri aparılmışdır.

Qazax Telekommunikasiya Qovşağı tərəfindən 2018-ci ilin birinci yarımilinin yekununa görə, 723720 manat tarif gəliri proqnozuna qarşı 777881 manat gəlir əldə edilərək proqnoz tapşırığa 107 faiz əməl olunmuşdur.

Rayon Su Kanal İdarəsi tərəfindən 2018-ci ilin 6 ayı ərzində 6240 əhali abonentə xidmət göstərilmiş, içməli su və çirkab suların dəyəri 265907 manat olmuş, 227037 manat vəsait toplanmışdır.

Qazax şəhəri Osman Sarıvəlli küçəsində 100 mm-lik dəmir boru vasitəsilə uzunluğu 250 metr olan su xətti və Ürkməzli kəndində 1500 metr uzunluğunda içməli su xətti çəkilmişdir.

Fərəhli kəndində Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən 1,5 km uzunluğunda içməli su xətti çəkilmiş və 16 tonluq su çəni quraşdırılmışdır.

Rayon təhsil şöbəsinin tabeliyində olan 34 tam orta, o cümlədən 1 məktəb-lisey, 6 ümumi orta, 6 ibtidai məktəb və 2 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Cari dərs ilində ümumtəhsil məktəblərində təhsil alan 11786 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1714 nəfər müəllim məşğul olur.

2017-2018-ci ilin tədris ili ərzində rayon təhsil şöbəsinin müvafiq əmri ilə yaradılmış işçi qrupun üzvləri tərəfindən rayonun 40 ümumtəhsil məktəbində ayrı-ayrı fənlər üzrə monitorinqlər aparılmış, nəticələr yekunlaşaraq müzakirə olunmuşdur.

Bu ilin əvvəllərində rayonda olan körpələr evi-uşaq bağçalarının maddi-texniki bazasının yaxşılaşdırılması sahəsində bir sıra işlər görülmüşdür.

Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli sərəncamına uyğun olaraq köhnə Mərkəzi Rayon Xəstəxanasının yerində yeni 145 çarpayılıq Mərkəzi Rayon Xəstəxana Kompleksinin tikintisi sürətlə davam etdirilir. Artıq xəstəxananın əsas binasında tikinti işləri yekunlaşmaq üzrədir.

Rayon Gənclər və idman idarəsi tərəfindən 2018-ci ilin 6 ayında gənclərlə iş sahəsi üzrə 17, bədən tərbiyəsi və idman sahəsi üzrə 18 tədbir keçirilmişdir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı ilə əlaqədar Qazax rayonunda davamlı surətdə yeni iş yerləri açılır. Birinci yarımildə 11 yeni müəssisə yaradılmış, 274-ü daimi olmaqla 427 yeni iş yeri açılmışdır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Qazax-Uzuntala avtomobil yolundan ayrılan, ümumi uzunluğu 7 km olan Ermənistanla sərhəddə yerləşən Cəfərli strateji əhəmiyyətli avtomobil yolunun tikintisi işləri yekunlaşmışdır.

Rayon icra hakimiyyəti tərəfindən Məzəm kəndində 12 ailənin həyətində ümumi uzunluğu 238 p/m olmaqla, 714 $m^2$ istinad divarının çəkilişi davam edir.

"İnvestel GROUP" MMC tərəfindən İkinci Şıxlı kəndində aqropark yaradılmışdır.

2018-ci ilin birinci yarımilliyi ərzində Qazax rayonunda kənd təsərrüfatı məhsullarının artırılması məqsədi ilə də bir sıra səmərəli işlər görülmüş və müsbət nəticələr əldə olunmuşdur.

Qazax Suvarma Sistemləri İdarəsi rayonun 17421 hektar kənd təsərrüfatına yararlı torpaq sahələrinin suvarılmasına xidmət edir.

2018-ci ilin məhsulu üçün rayonda 9102 hektar buğda, 3527 hektar arpa olmaqla cəmi 12629 hektar taxıl, 1086 hektar kartof, 543,5 hektar qarğıdalı, 492,1 hektar tərəvəz, 2,4 hektar darı, 3571,5 hektar yonca, 259,7 hektar noxud, 46 hektar günəbaxan, 60 hektar tütün, 88 hektar sorqo və 31 hektar bostan bitkiləri əkilmişdir.

Hazırda rayon ərazisində taxıl biçini sürətlə davam edir. Bu günədək 3510 hektar arpa, 4993 hektar buğda sahəsi biçilmişdir. Arpa bitkisi üzrə orta məhsuldarlıq 24,6 sentner, buğda bitkisi üzrə 31,4 sentner təşkil etmişdir. Rayonun Yuxarı Salahlı kəndində 1 hektar ərazidə tərəvəz yetişdirilməsi məqsədilə yeni istixana kompleksinin tikintisi davam etdirilir.

Qazax rayonu Baytarlıq İdarəsi tərəfindən 2018-ci ilin birinci yarımilində fərdi və fermer təsərrüfatlarında olan 31406 baş iribuynuzlu, 140948 baş xırdabuynuzlu və 1153 baş təkdırnaqlılar qarayara, 31634 baş iribuynuzlu, 92420 baş xırdabuynuzlu heyvanlar dabax, 4607 baş sahibli ev itləri quduzluq xəstəliyinə qarşı peyvənd edilmişdir.

2018-ci ilin 6 ayı ərzində Qazax RİH başçısı tərəfindən kəndlərdə və şəhərdə 20 səyyar görüş keçirilmişdir. Həmin görüşlərdə iştirak edənlərin sayı 3881 nəfər, müraciət edənlərin sayı 149 nəfər olmaqla 98 təklif irəli sürülmüşdür. Qaldırılan problemlər və təkliflərdən 36-sı icra edilmiş, 41 məsələ üzrə işlər davam edir, 21 təklif ilə əlaqədar isə aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılmışdır.

Məruzə ətrafında Qazax Elekrik Şəbəkəsinin rəisi Elşad Məmmədov, rayon Suvarma Sistemləri İdarəsinin rəisi Abbas Göyüşov, DSMF Qazax rayon şöbəsinin müdiri Laçın Qurbanov çıxış edərək hesabat dövründə rəhbərlik etdikləri sahələrdə görülən işlərdən və qarşıda duran vəzifələrdən danışıblar.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Ağdaş: dinamik inkişaf tempi saxlanılmışdır





**Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sədrliyi ilə iyulun 8-də Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarımilinin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında qeyd edilmişdir ki, cari ilin altı ayında qarşıda duran bütün vəzifələr uğurla icra edilmiş, Azərbaycan öz dinamik inkişaf templərini saxlaya bilmişdir.**

Bu günlərdə Ağdaş Rayon İcra Hakimiyyətində keçirilən geniş tərkibli şura iclasında ilin birinci yarısında görülmüş işlərdən söhbət açılmış, qarşıda duran vəzifələr müəyyən edilmişdir. Hesabat məruzəsi ilə çıxış edən Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Tofiq İbrahimov qeyd etdi ki, möhtərəm Prezidentimizin yerli icra strukturları qarşısında qoyduğu vəzifələrin icrasını təmin etmək məqsədilə Ağdaş rayonunda ardıcıl tədbirlər görülməsi davam etdirilir.

Hesabat dövrü ərzində rayonda yerli icra orqanları qarşısında duran vəzifələrin uğurla həyata keçirilməsi üçün ardıcıl və məqsədyönlü işlərin aparılması davam etdirilmişdir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində rayonda bir sıra tədbirlər həyata keçirilmişdir.

2018-ci ilin birinci yarısında 10 yaşayış məntəqəsini birləşdirən 11,7 min nəfər əhalinin yaşadığı 33 km-lik Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı və 6 yaşayış məntəqəsini birləşdirən 7,8 min nəfər əhalinin yaşadığı 27 km-lik Nehrəxəlil-Tofiqi-Şəmsabad, 3 yaşayış məntəqəsini birləşdirən 1,8 min nəfər əhalinin yaşadığı 6,5 km-lik Ağcaqovaq-Ərəbşəki-Eymur marşrutu üzrə avtomobil yollarının yenidən qurulması işləri davam etdirilmişdir.

Hesabat dövründə rayonda bitkiçilik və heyvandarlıq məhsulları istehsalının inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmışdır. Birinci yarımil ərzində 2018-ci ilin məhsulu üçün əkilmiş 14 min 230 hektar taxıl sahəsində biçin işlərinə başlanılmışdır. 9933,6 hektar arpa sahəsində biçin aparılmış, 23542,6 ton məhsul əldə edilmiş, məhsuldarlıq 23,7 sentner təşkil etmişdir. 3343,2 hektar buğda sahəsində biçin aparılmış, 8324,6 ton məhsul əldə edilmiş, məhsuldarlıq 24,9 sentner təşkil etmişdir.

Birinci yarımil ərzində yazlıq əkinlər başa çatmış və 7593,5 hektar, o cümlədən 973,2 hektar tərəvəz, 722,5 hektar paxlalı və dənli bitkilər, 561,6 hektar dən qarğıdalı, 222,2 hektar kartof, 269 hektar bostan, 1645 hektar yonca əkilmişdir. Hazırda təsərrüfatlarda yazlıq bitkilərin əkini başa çatmışdır.

Hazırda rayon üzrə 173 fermer tərəfindən 3200 hektar pambıq əkininə yararlı torpaq sahələrində pambıq əkilmiş, həmin torpaq sahələrinin xəritələri hazırlanaraq zəruri infrastruktur yaradılmışdır.

Rayonda baramaçılığı daha da inkişaf etdirmək məqsədilə ötən il ərzində daxili imkanlar və dövlət dəstəyi hesabına əkilmiş 130 min ədəd tut tinginə qulluq işlərinin aparılması davam etdirilmişdir. 2018-ci ilin birinci yarısında kümçülər tərəfindən 11,5 ton barama təhvil verilmişdir.

"Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı"na əsasən Ağdaş şəhərinin su və kanalizasiya sistemlərinin yenilənməsi layihəsi üzrə işlər davam etdirilmişdir. Layihə üzrə 163,4 km içməli su xətti və 143,7 km kanalizasiya xətləri çəkilmiş, 23370 nəfəri əhatə edən əhali üzrə 5238 sayda abonentə "Smart" kart tipli suölçən sayğaclar quraşdırılıb aktivləşdirilərək içməli su ilə təmin edilməyə başlanmışdır.

2018-ci ildə rayonun 28 yaşayış məntəqəsinin içməli su ilə təmin edilməsi üçün 22 modul tipli sutəmizləyici qurğuların, 359 su bulaqlarının qurulması işləri başa çatdırılmış, əhali içməli sudan istifadəyə başlamışdır. Nehrəxəlil kəndində 12, Gürcüva kəndində 9 su bulağı quraşdırılmış, Gürcüva kəndində bulaqlar əhalinin istifadəsinə verilmişdir. Nehrəxəlil kəndində su mənbəyi olmadığı üçün şəhər xəttindən Nehrəxəlil kəndinə su xəttinin çəkilməsi işlərinə başlanılmışdır. Ləki Qəsəbəsinin su təchizatının yenidən qurulması işlərinə başlanılmışdır.

Əlavə olaraq 17 kənd yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğuların qurulması və Dəhnəxəlil kəndinə su xəttinin çəkilməsi nəzərdə tutulmuşdur.

Ağdaş Suvarma Sistemləri İdarəsi 2018-ci ildə 29 min 896 hektar əkin sahələrini suvarma suyu ilə təmin etməyi planlaşdırmışdır.

2018-ci ilin birinci yarısında 7 min 122 hektar yem bitkilərinin 1-ci vegetasiya suvarılması başa çatdırılmış, 9 min 800 hektar dənli bitkilər sahəsinin 11 min 217 hektarında 1-ci vegetasiya suvarılması və 3 min 625 hektarında ikinci vegetasiya suvarılması, 998 hektar bostan tərəvəz sahələrinin 2-ci vegetasiya suvarılması, 880 hektar tərəvəzin 4-cü vegetasiya suvarılması, 1550 hektar pambıq bitkisinin arat və 1-ci vegetasiya suvarılması, 2 min 224 hektar çoxillik bitkilərin 2-ci vegetasiya suvarılması və 1890 hektarında 3-cü vegetasiya suvarılması, 529 hektar çəltik bitkisinin arat və 1-ci vegetasiya suvarılması, 210 hektar biyan bitkisinin 1-ci vegetasiya suvarılması, 3642 hektar həyətyanı sahələrdə 4-cü vegetasiya suvarılması aparılmışdır.

Son 15 ilə yaxın dövr ərzində regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına uyğun olaraq dövlət büdcəsi və Heydər Əliyev Fondunun vəsaiti hesabına rayonda 27 yeni məktəb tikilmiş, 7 məktəbdə əlavə sinif otaqları inşa edilmiş, 7 ümumtəhsil məktəbi əsaslı təmir olunmuş, bütövlükdə isə 8 min nəfərdən artıq şagirdin təhsil şəraiti yaxşılaşdırılmışdır. Bu göstərici hazırda rayonun təhsil müəssisələrində təhsil alan şagirdlərin 70 faizindən artıqdır.

Cari ilin birinci yarımili ərzində rayonda 30 məktəbəqədər tərbiyə müəssisəsi, 68 ümumtəhsil məktəbi, 2 məktəbdənkənar müəssisə, 1 Peşə məktəbi, 1 orta ixtisas təhsili müəssisəsi olan Dövlət Humanitar Kolleci fəaliyyət göstərmişdir.

Ölkə Prezidentinin 7 aprel 2018-ci il tarixli sərəncamının icrasına uyğun olaraq cari ildə Xınaxlı, Bulaqotağı, Malay, Binələr, Əmirmahmud kəndlərində 5 yeni modul tipli məktəbin quraşdırılması nəzərdə tutulmuşdur.

Sonra məruzə ətrafında çıxışlar dinlənilmiş və müvafiq qərar qəbul olunmuşdur.

**İlham PƏNAHOV,**
**"Respublika".**

# SAMUX: GÖRÜLƏN MƏQSƏDYÖNLÜ İŞLƏR UĞURLARA STİMUL VERİR

**Samuxda ölkə başçısının Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən irəli gələn məsələlərlə bağlı geniş yığıncaq keçirilmişdir.**

Yığıncağı giriş sözü ilə açan **Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev** qeyd etdi ki, əvvəlki illər kimi 2018-ci il də Samux rayonu üçün uğurlu il hesab olunur və cari ilin altı ayının yekunları bunu deməyə əsas verir. Rayon iqtisadiyyatının bütün sahələrində artım dinamikası davam etmişdir. Eyni zamanda rayonda tikinti-quruculuq və abadlıq sahəsində işlər daha da sürətləndirilmişdir.



Belə ki, hesabat dövründə rayon üzrə ümumi məhsul buraxılışının həcmi 75,2 milyon manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövründəkindən (62,5 mln. manat) 20,2 faiz çoxdur. Cari ilin 6 ayında ötən ilin müvafiq dövri ilə müqayisədə sənaye məhsulunun həcmi 34,8 faiz artaraq 4,4 milyon manat, kənd təsərrüfatı məhsullarının həcmi 25,7 faiz artaraq 40,6 milyon manat, tikinti 40,2 faiz artaraq 9,4 milyon manat təşkil etmişdir. Hesabat dövründə pərakəndə əmtəə dövriyyəsi 3,7 faiz, əsas kapitala yönəldilən investisiya 37,5 faiz artmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə verdiyi müvafiq tapşırığa əsasən rayon ərazisində iri təsərrüfatların yaradılması istiqamətində işlər davam etdirilmişdir. Hazırda rayonda "AQRO DAİRY" Məhdud Məsuliyyətli Cəmiyyət, "Boz dağ" heyvandarlıq kompleksi, "Ulduz 2011" MMC, "Qarabağ Region MKT" MMC, "Vest Milk" MMC, Murovdağ kəndli-fermer təsərrüfatı, Heyvandarlıq və Yemçilik Müəssisəsi, "Region Aqro" MMC kimi iri sahibkarlıq təsərrüfatları fəaliyyət göstərir.

Cari ildə 12141 hektar sahədə yazlıq bitkilərin səpini aparılmışdır. Onlardan 526 hektarı şəkər çuğunduru, 2865,5 hektarı dən üçün günəbaxan, 245,0 hektarı kartof, 710 hektarı tərəvəz, 212 hektarı bostan bitkiləri, 359 hektarı qarğıdalı, 400 hektarı pambıq və sair məhsullarıdır. Sahələrdən 31458 ton taxıl yığılmışdır ki, bunun da 18308 tonu buğda, 13 150 tonu isə arpadır. Məhsuldarlıq 34,5 sentner təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövründəkindən (26,1 sentner) 8,4 sentner və ya 32,2 faiz yüksəkdir.

2018-ci ilin 01 iyul tarixinə iribuynuzlu mal-qaranın sayı 23 659 baş olmuşdur. Bunlardan inək və camışların sayı 11886 baş təşkil edir. Qoyun və keçilərin sayı isə 151087 başdır.

Altı ayda 2667 ton diri çəkidə ət, 13125 ton süd, 4,4 milyon ədəd yumurta istehsal olunmuşdur. Heyvandarlıq məhsullarının istehsalında da ötən ilin müvafiq dövrü ilə müqayisədə artım vardır.

Bununla bərabər 2018-ci ilin birinci yarısında 192 ədəd nasos, 27 ədəd elektrik avadanlığı təmir edilmişdir. Torpaqların suvarılması üçün kanallarda 172 min $m^3$ lildəntəmizləmə, 40 min $m^3$ sahilbərkitmə işləri görülmüşdür. Kanallarda 17 ədəd hidrotexniki qurğu, 7 ədəd hidropostlar təmir edilmiş, 8400 kvadratmetr kol-koslardan təmizləmə işləri aparılmışdır. 6 ay ərzində Gəncə çayında 7 min kubmetr, Qabırrı çayında 6 min kubmetr, Qoşqar çayında 4 min kubmetr əlavə sahilbərkitmə işləri görülmüşdür.

Birinci yarımildə rayon icra hakimiyyətinin başçısı tərəfindən rayonun bütün yaşayış məntəqələrində 23 səyyar qəbul-görüş keçirilmişdir. Bu görüşlərdə 69 müraciət edilmişdir. Müraciətlər əsasən yolların təmiri, yeni yaşayış massivlərinin elektrik enerjisi və təbii qazla təminatı, torpaq, suvarma suyu ilə təminat, bağça tikintisi, tibb müəssisələrinin təmiri ilə bağlı olmuşdur. Müraciətlərin 60-ı (86,9 faiz) icra edilmiş, 9-u (13,1 faiz) hazırda icradadır.

2018-ci ilin ikinci yarısında qarşımızda yerinə yetiriləsi vacib olan daha böyük vəzifələr durur. Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin proqram xarakterli nitqində qarşıya qoyduğu vəzifələri yerinə yetirmək üçün bütün imkanlar səfərbər ediləcəkdir. Qarşıda duran ən vacib məsələlər sırasında kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsi, tikinti-quruculuq işlərinin davam etdirilməsi, şəhərin küçələrinin yenidən qurulması, kəndlərarası yolların və rayonun 14 yaşayış məntəqəsini əhatə edən mərkəzləşdirilmiş içməli su sisteminin çəkilişinin başa çatdırılması və sairlər durur.

Rayonun Sərkar kənd orta məktəbi üçün 650 şagird yerlik, Qarayeri qəsəbə 2 saylı tam orta məktəbi üçün 200 şagird yerlik, Alıuşağı kənd tam orta məktəbi üçün isə 120 şagird yerlik əlavə korpusların tikintisinin həyata keçirilməsidə əsas vəzifələrdəndir.

**Məruzə ətrafında çıxış edən Samux Kənd Təsərrüfat İdarəsinin rəisi Rahil Həsənov, Rayon Suvarma Sistemləri İdarəsinin rəisi Gülağa Bağırov, Təhsil şöbəsinin müdiri Gülağa Hüseynov görülən işlərdən və qarşıda duran vəzifələrdən danışdılar.**

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# İmişli: Sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran vəzifələr





**İmişlidə 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə rayon icra hakimiyyəti başçısı yanında şura iclası keçirildi. Tədbirdə çıxış edən icra hakimiyyətinin başçısı Vilyam Hacıyev bildirdi ki, 8 iyul 2018-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci yarımilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclas keçirilmişdir. Birinci yarımilin nəticələrindən danışarkən cənab Prezident qeyd etmişdir ki, Azərbaycan bu müddət ərzində uğurla inkişaf etmişdir, qarşımızda duran bütün vəzifələr artıqlaması ilə yerinə yetirilmiş, ölkəmiz güclənmiş və hərtərəfli inkişaf etmişdir.**

2018-ci ilin birinci yarımilində İmişli rayonunun sosial-iqtisadi inkişafında da yaxşı nəticələr əldə olunmuşdur. Belə ki, iqtisadiyyatın əsas sahələri üzrə 172694900 manatlıq məhsul istehsal edilmiş və ya xidmət göstərilmişdir ki, onun 61245400 manatı və ya 35,5 faizi sənaye, 59696000 manatı və ya 34,6 faizi kənd təsərrüfatı, 7816900 manatı və ya 4,5 faizi tikinti, 39214500 manatı və 22,7 faizi ticarət və iaşə, 4432900 manatı və ya 2,6 faizi nəqliyyat, 289.200 manatı və ya 0,1 faizi rabitə müəssisələrinin payına düşür. Göründüyü kimi, rayon iqtisadiyyatında əsas yeri sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı tutur.

Kənd təsərrüfatı məhsullarının istehsalından danışan icra başçısı bildirdi ki, İmişli rayonunun iqtisadiyyatında kənd təsərrüfatı məhsullarının istehsalı da xüsusi yer tutur. Ölkədə aparılan aqrar islahatların uğurla həyata keçirilməsi nəticəsində rayonumuzda kənd təsərrüfatı inkişaf etmişdir. Son illərdə olduğu kimi, pambıq, taxıl, çuğundur əsas bitkiçilik sahəsi kimi qalmaqdadır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev ölkəmizdə pambıqçılığın inkişafı ilə bağlı müvafiq tapşırıq vermişdir. Məlumat üçün bildirirəm ki, bu il İmişli rayonunda 13645 ha sahədə pambıq əkilmişdir. Hazırda pambıq sahələrində becərilmə və suvarma işləri aparılır.

Baramaçılığın inkişafı rayonumuzda uğurla inkişaf etdirilir. Cari ildə rayon ərazisində 134 kümçüyə ipəkqurdu paylanaraq 10087 kq yaş barama istehsal edilmişdir ki, bu da ötən illə müqayisədə 25,6 faiz çox olmuşdur.

2018-ci ilin birinci yarımili ərzində heyvandarlıq və quşçuluq sahələrinin inkişafı təmin edilmiş, rayon üzrə mal-qaranın sayı 94153 başa, qoyunların sayı 253013 başa, quşların sayı isə 997090 başa çatmışdır. Ət istehsalı (diri çəkidə) 5144,2 ton, süd istehsalı 24960 ton, yumurta istehsalı isə 25776 min ədəd olmuşdur. Rayon ərazisində 19084 hektar sahədə taxıl, bundan 5760 hektar sahədə arpa, 13324 hektar sahədə buğda, 209 hektar sahədə kartof, 109 hektar sahədə şəkər çuğunduru, 322,6 hektar sahədə tərəvəz və 329,4 hektar sahədə bostan əkilmişdir. Taxıl sahələrindən 18284 hektar sahədə biçin işləri aparılmış, orta məhsuldarlıq arpada 29,8 sentner, buğdada isə 34 sentner olmuşdur, hazırda biçin davam edir.

İlin bütün fəsillərində əhalini təzə tərəvəz məhsulları ilə təmin etmək üçün müasir istixana təsərrüfatları yaradılmışdır.

Azərbaycan Respublikasında "Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq İmişli rayonunun inzibati ərazisində yerləşən qış otlaq sahələrindən 10211 hektar torpaq sahəsinin Nazirlər Kabinetinin Qərarı ilə təyinatı dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilmişdir. 6 min ha qış otlaq sahəsinin isə təyinatının dəyişdirilməsi üzrə sənədləşmə işləri aparılır.

Əhalinin elektrik enerjisi və qaz təminatından danışan icra başçısı bildirdi ki, 2018-ci ilin 6 ayı ərzində istehlakçıların fasiləsiz və etibarlı elektrik enerjisi təchizatının yaxşılaşdırılması ilə 10 və 0.4 kv-lıq xətlərdə yenidənqurma işləri aparılmış, mövcud istismar xidmətini başa vurmuş dayaq və naqillər yenisi ilə əvəz edilmiş, yeni güc mərkəzləri yaradılmışdır. Bu müddətdə 50 ədəd müxtəlif güclü transformator cari təmir, 45 ədəd transformator yarımstansiyası isə əsaslı təmir edilərək əhalinin istifadəsinə verilmişdir. Rayon ərazisində yararsız hava elektrik naqillərinin və dayaqlarının dəyişdirilməsində müvafiq işlər aparılmışdır. Belə ki, rayonun Telişli və Xəlfəli kəndlərində həyətyanı sahələrdən açıq naqillərlə keçən hava xətləri ilə həyətyanı sahələrdən çıxarılaraq yol kənarı ilə kabel xətləri yenidən çəkilmişdir. Hazırda Aranlı, Qızılkənd, Hacırüstəmli, Çaxırlı və Məzrəli kəndlərində elektrik təsərrüfatlarında müvafiq təmir işləri aparılır. Regional Qaz İstismarı İdarəsinin İmişli xidmət sahəsi tərəfindən rayonda 2018-ci ilin 6 ayında 160 fərdi ev, 10 qeyri-əhali sektorunu təmsil edən obyekt qazlaşdırılaraq istismara təhvil verilib. Qeyri-əhali sektoru üzrə isə abonent sayı 116 olmuşdur. Rayonun 37 yaşayış məntəqəsinin tam qazlaşdırılması təmin edilmişdir. Rayonun Qızılkənd və Aranlı kəndlərində qaz xəttinin çəkilməsi məqsədi ilə layihə-smeta sənədləri hazırlanmış və həmin kəndlərdə qaz xətlərinin çəkilişinə başlanmışdır.

Vilyam Hacıyev sonda onu da qeyd etdi ki, 2018-ci ilin birinci yarımili ərzində sosial-iqtisadi inkişafın yekunlarının təhlili göstərir ki, rayonda iqtisadiyyatın bir çox sahələrinin inkişafı təmin edilmiş, İmişli şəhərində abadlıq-quruculuq işləri həyata keçirilmiş, qarşıya qoyulan vəzifələrin icrası istiqamətində yaxşı nəticələr əldə olunmuşdur.

Biz bundan sonra da ümummilli liderimiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qarşımıza qoyduğu vəzifələrin öhdəsindən ləyaqətlə gəlməyə çalışacaq, dövlətçiliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində bütün qüvvəmizi sərf edəcəyik.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti LOT 1 - Dövlət Miqrasiya Xidməti aparatı və sisteminə daxil olan qurumların əsaslı təmiri işlərinin satınalınması üzrə AÇIQ TENDERƏ DƏVƏT EDİR

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat zərfdə, yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, iddiaçının maliyyə və texniki imkanları, istehsalçı və ya onun rəsmi distribyuterinin olması, analoji müqavilələrin icrasına dair təcrübə, təklifin texniki tələblərə uyğunluğu, texniki xidmətlərin göstərilməsi, istismara verilən zəmanət müddəti.

Tender predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlananlar tenderin əsas şərtlər toplusunu (Azərbaycan dilində hazırlanmış) tenderdə iştirak etmək üçün yazılı müraciət etdikdən sonra aşağıda qeyd olunan hesaba Lot 1 üzrə 400 (dörd yüz) manat məbləğində iştirak haqqı ödəməklə Bakı şəhəri, Binəqədi rayonu 3123-cü məhəllə, Binəqədi şosesi 202 (əlaqələndirici şəxs: Gülsüm İsmayılova, Telefon: (+99412) 5656118, daxili 255) ünvanından ala bilərlər.

Hesab:
AZ38CTRE00000000000004518570
VÖEN: 1700760271
Bank : DXA
Filialın kodu: 210005
VÖEN: 1401555071
SWİFT: CTREAZ22
M/h: AZ41NABZ01360100000000003944
Büdcə səviyyə kodu: 7
Büdcə təsnifat kodu: 142340.

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər.

1. Tenderdə iştirak etmək üçün yazılı ərizə;
2. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
3. Tender təklifi (tender təklifləri zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
4. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 60 (altmış) bank günü çox olmalıdır);
5. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

– Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

– Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;

– Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

– Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank arayışı;

– Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).

Malgöndərənlər (podratçılar) 1, 2 və 5-ci bəndlərdə qeyd olunan sənədləri 24 avqust 2017-ci il saat 10.00-a, 3 və 4-cü bəndlərdə göstərilən sənədləri 03 sentyabr 2018-ci il, saat 10.00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 04 sentyabr 2018-ci il tarixində saat 15.00-da Bakı şəhəri, Binəqədi şosesi 202, Dövlət Miqrasiya Xidmətinin inzibati binası ünvanında açılacaqdır.

Tender Komissiyası.

---

"AZERGOLD" QSC AÇIQ TENDERƏ DƏVƏT EDİR

Tender 1 lot üzrə keçirilir:

Lot 1 - Dağ-mədən sənayesi üçün stasionar konveyer xəttinin quraşdırılması işlərinin satınalınması

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə səriştəsinə və etibarlılığa malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini "AzerGold" QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Rafiq Abdullayev, Tel: 012-505-02-02 (dax. 1107), I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər

LOT- 1: İştirak haqqı: 300 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.

Benefisiar: AZERGOLD QSC VÖEN: 1403467421
Hesab nömrəsi:
AZ85PAHA38020AZNHC0190068658
Bank: "PAŞA Bank" ASC
VÖEN: 1700767721
Müxbir hesab:
AZ82NABZ01350100000000071944
SWİFT: PAHAAZ22 Kod: 505141

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);
5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;
7. Digər müvafiq sənədlər (malgöndərənlərin (podratçıların) ixtisasına dair müəyyən edilmiş müvafiq sənədlər).

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) "27" avqust 2018-ci il, saat 15:00-a qədər, tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla 2 nüsxədə (əsli və surəti) "04" sentyabr 2018-ci il, saat 15:00-a qədər Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında "AzerGold" QSC-nin Tender Komissiyasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender üzrə təklif zərflərinin açılışı "05" sentyabr 2018-ci il, saat 15:00-da Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

"AzerGold" QSC,
TENDER KOMİSSİYASI.

---

*Müdafiə Nazirliyi:*

# David Tonoyanın bəyanatı Ermənistan əhalisini ruhlandırmağa xidmət edir

**Ermənistan ordusundakı son korrupsiya qalmaqalı fonunda müdafiə naziri David Tonoyanın guya 200 milyon dollarlıq kredit razılaşmasında nəzərdə tutulmuş silahların Rusiya tərəfindən Ermənistana tam tədarükünün başa çatdırılması barədə bəyanatı bu ölkə əhalisinin süni şəkildə ruhlandırılması cəhdindən başqa bir şey deyil.**

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

Nazirliyin açıqlamasında qeyd olunub ki, bir müddət əvvəl Ermənistan tərəfi 200 milyon dollarlıq kredit razılaşmasında nəzərdə tutulmuş Rusiya istehsalı olan silahların Ermənistan tədarükündə ciddi problemlərin olduğunu bildirib. Lakin, qısa müddət keçdikdən sonra Ermənistanın müdafiə naziri David Tonoyan əvvəl deyilənlərə zidd olaraq vicdan əzabı çəkmədən həyasızcasına bütün aləmə car çəkir ki, guya Rusiya Ermənistana silah tədarükünü tam başa çatdırıb. Ermənistana çatdırılan müasir, modernizə edilmiş silahlar arasında Rusiya ordusunun belə silahlanmasına verilməyən silahların olması barədə Tonoyanın dediklərinə gəldikdə, bu, öz xalqını aldatmaqdan başqa bir şey deyil. Ermənistan tərəfinin mütəmadi olaraq bu cür məlumatlar yayması ordudakı son korrupsiya qalmaqalı fonunda ölkə əhalisinin süni şəkildə ruhlandırılması məqsədilə daxili auditoriyaya hesablanıb.

"Müdafiə naziri kimi, D.Tonoyan bilməli idi ki, Rusiya öz Silahlı Qüvvələrini hər hansı silah növü ilə tam təmin etmədən həmin silahı xarici ölkələrə tədarük etmir. Şübhəsiz ki, Ermənistanın müdafiə nazirinin fəxrlə bəhs etdiyi silahlar, doğrudan da, Rusiya ordusunun silahlanmasında yoxdur. Səbəb isə sadədir: həmin silahlar artıq köhnəlib və istifadəyə yararsızdır", - deyə Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

AZƏRTAC

---

## DÖVLƏT SƏRHƏD XİDMƏTİ MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

**Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində sərhədboyu zonada narkotik xassəli kolların yabanı halda bitdiyi sahə aşkar olunmuşdur.**

2018-ci il iyunun 19-da Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin hərbi qulluqçuları tərəfindən Lerik rayonunun Orand və Hildərə kəndlərinin sərhəd xəttinə yaxın ərazilərində əqrotexniki qulluq olunmamış 78560 ədəd, ümumi çəkisi 1960 kiloqram xaş-xaş kolunun yabanı halda bitməsi müəyyən edilmişdir.

Qeyd olunan xaş-xaş kolları yerli icra nümayəndəliyi, Lerik rayonunun polis şöbəsinin əməkdaşlarının iştirakı ilə yığılaraq akt tərtib olunmuş və yandırılma yolu ilə məhv edilmişdir.

---

AZƏRBAYCAN RESPUBLİKASI ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ YANINDA DAŞINMAZ ƏMLAKIN KADASTRI VƏ ÜNVAN REYESTRİ XİDMƏTİNİN TABELİYİNDƏ "KADASTR VƏ YERQURULUŞU LAYİHƏ-TƏDQİQAT MƏRKƏZİ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir**

**Lot 1.** Dövlət ehtiyacları üçün daxil olan sifarişlər əsasında yerinə yetirilən layihələr çərçivəsində tikinti altına düşən daşınmaz əmlak obyektlərinin kadastr planlarının tərtib edilməsi və onlardan çıxarışların verilməsi ilə əlaqədar çöl-geodeziya ölçmə işlərinin satınalınması

Açıq tenderdə iddiaçı qismində ölkə üzrə kadastr, eləcə də çöl-geodeziya və ölçmə işlərinin icrasında müvafiq təcrübəyə malik hüquqi şəxslər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra azərbaycan dilində tərtib olunmuş Tenderin Əsas Şərtlər Toplusunu Bakı şəhəri, Yasamal rayonu, Ş.Mehdiyev küçəsi, 269 (Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi, otaq № 507, tel.: (+994 12) 533 18 93, faks nömrəsi: (+994 12) 533 19 58, e-mail: stagiyev@emdk.gov.az ünvanından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı: 1 000 (bir min) manat**

*"Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" MMC*
*Hesablaşma hesabı:*
*AZ23AİİB38030019443701778107*
*VÖEN: 1302005671*
*Bank: "Kapital Bank"ın 1 saylı Xətai filialı*
*Kod: 200071*
*Müxbir hesab:*
*AZ37NABZ01350100000000001944*
*VÖEN: 9900003611*
*S.W.İ.F.T.BİK.: AİİBAZ 2X*

**İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət; 2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
*4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*6. İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
*7. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*8. İddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
*9. İddiaçı tərəfindən təklif olunan işçi heyətinin peşəkarlığı, təcrübəsi və səriştəsini təsdiq edən səndələr;*
*10. Tenderin Əsas Şərtlər Toplusunda göstərilən bütün digər sənədlər;*
*11. Tender təklifi (texniki və maliyyə təklifləri). Tenderin maliyyə təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
*12. Tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı. Zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır.*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tender təkliflərini qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 2 nüsxədə ("Əsli" və "Surəti") təqdim etməlidirlər. İddiaçıların təkliflərinin "Əsli" və "Surəti" arasında fərqlər olduqda üstünlük "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş, notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 12 (on iki) ay müddətində icra olunmalıdır.

Tender təkliflərinin qiymətləndirilməsi aşağıdakı meyarlara uyğun aparılacaqdır:

*- iddiaçı tərəfindən işin yerinə yetirilməsinə dair təklif olunan üsullar, yanaşma və metodologiya;*
*- iddiaçının bu sahədəki analoji iş təcrübəsi;*
*- təklif olunan işçi heyətinin peşəkarlığı, təcrübəsi və səriştəsi;*
*- görüləcək işlərin dəyəri.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 29 avqust 2018-ci il tarixinə qədər (saat 17.00-dək), tender təklifini və tender təklifinin bank təminatını isə 05 sentyabr 2018-ci il tarixinə qədər (saat 17.00-dək) Bakı şəhəri, Yasamal rayonu, Ş.Mehdiyev küçəsi, 269 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 06 sentyabr 2018-ci il tarixində (saat 15.00-da) Bakı şəhəri, Yasamal rayonu, Ş.Mehdiyev küçəsi, 269 ünvanında açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

BİLDİRİŞ

"AzerGold" QSC tərəfindən "Lot 1 - Daşkəsən rayonunda yerləşən Çovdar Filiz Emalı Sahəsində 3-cü topa qələvişdirmə sahəsinin tikintisi işlərinin satınalınması" üçün "Respublika" qəzetinin 21.07.2018-ci il tarixli buraxılışında dərc edilmiş açıq tender üzrə ilkin sənədlərin (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla sənədlər) qəbulu üçün son qəbul tarixi "24 avqust 2018-ci il saat 17.00" kimi, tenderə kommersiya təklifinin və təkliflərin təminatı sənədlərinin son qəbul tarixi "04 sentyabr 2018-ci il saat 17.00" kimi və tender üzrə təklif zərflərinin açılışı tarixi "05 sentyabr 2018-ci il saat 17.00" kimi oxunmalıdır. Tender elanının dərc edilmə tarixi 24.07.2018-ci il hesab edilir.

"AzerGold" QSC, Tender Komissiyası

---

## BİLDİRİŞ

Bakı 1 saylı İnzibati-İqtisad Məhkəməsinin 25 may 2018-ci il tarixli, 2-2(81)-428/2018 nömrəli qətnaməsi ilə Borclu - Bank olmayan kredit təşkilatı "Vijn Fond AzərKredit" MMC (VÖEN: 1400465881), müflis elan olunmuş və "Gəncə Konsultant" ASC onun əmlak inzibatçısı təyin edilmişdir.

Kreditorlar Borcluya qarşı olan tələblərini bildirişin dərc edildiyi tarixdən ən geci 60 gün keçənədək yazılı şəkildə onun aşağıdakı ünvanına təqdim edə bilərlər:

Bakı şəhəri, AZ1009, S.Rəhimov və S.Vurğun küçələrinin kəsişməsi, 309-cu məhəllə, "World Business Center", 3-cü mərtəbə.

Kreditorların ilkin yığıncağı 26 iyul 2018-ci il tarixdə, saat: 14:30-da həmin ünvanda keçiriləcəkdir.

Kreditorlar tələbin verilməsi qaydası, onun forması, habelə kreditorlar yığıncağının keçirilməsi qaydası və sair əlavə məlumatları borclunun *www.azercredit.az* rəsmi veb səhifəsindən əldə edə bilərlər.

**Əmlak inzibatçısı**
**"Gəncə Konsultant" ASC.**

---

Gəncə şəhəri, Səməd Vurğun küçəsi ev-7 ünvanda yaşayan Qafarov Emin Namiq oğlunun adına olan AZE 17678932 nömrəli şəxsiyyət vəsiqəsi, AD 0011889 nömrəli hərbi vəsiqə və Kapital Banka aid maaş kartı itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhəri, Kəpəz rayonu, Sadıllı yaşayış sahəsi məhəllə-3 sahə 21-də yaşayan Məmmədova Aygün Hökümdar qızının adına olan 11.04.2005-ci ildə verilən 22140 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qusar rayonu, Xuray kənd sakini Hüseynov Aqil Alxas oğlunun adına verilmiş torpağın mülkiyyət hüququna dair Dövlət Aktı (JN: 248, kod: 30114018) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 23 yanvar 1998-ci il tarixli 1 nömrəli qərarı ilə Bürcəli kənd sakini Hüseynov İsgəndər İsi oğluna verilmiş torpağın mülkiyyət hüququna dair Dövlət Aktı (JN 171; KOD 80203038) itdiyi üçün etibarsız sayılır.

Dövlət Reyestri Xidmətinin Lənkəran şəhər ərazi idarəsi tərəfindən Astara rayonunun Artupa kənd sakini Ağayev Əliağa Aşur oğluna məxsus fərdi yaşayış evinə verilmiş Dövlət reyestrindən çıxarış (seriya MH; N 0000915; verilmə tarixi: 7 iyul 2006-cı il; qeydiyyat nömrəsi: 220600601) və 5 iyul 2006-cı il tarixli 437 inventar nömrəli texniki pasport itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 2 iyul 1999-cu il tarixli 18 nömrəli qərarı ilə Ərçivan qəsəbəsinin sakini Tağıyeva Qərib Hacıəli qızına verilmiş torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 295 A; KOD 80100018) itdiyi üçün etibarsız sayılır.

Bağlar Təssərrüfatının İnkişafi və İstismarı Birliyi tərəfindən Quliyev Bəkir Bahadur oğlunun adına 07.12.1964-cü ildə verilən 8960 nömrəli Müqavilə itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəhəri, Sabunçu r-nu, Albalı-2 (Vişnyovka-2) ərazidə yerləşən 239a/398 nömrəli bağ sahəsi).

DT və XK-nın Şabran rayon şöbəsi tərəfindən mərhum Zamanov İslam Adıgözəl oğlunun adına verilmiş JN - 078 F (kod - 30408028) saylı torpağın mülkiyyət hüququna dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

"Şahdağ Mehmanxana" Açıq Səhmdar Cəmiyyəti (vöen: 500264531) təşkilati-hüquqi formasını və adını dəyişdirərək "Şahdağ Mehmanxana" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrildiyini elan edir.

---

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Mingəçevir Dövlət Universiteti

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot - 1 - Əsas korpusun II hissəsinin təmiri**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara mailk olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdaki məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Mingəçevir şəhəri, Dilarə Əliyeva küçəsi, 21 (Əlaqələndirinci şəxs: Vəfa Əhmədova (024) 27-4-18-36; (024) 27-5-32-72) ünvanından ala bilərlər.

**İştirak haqqı**
**1 Lot - 50 manat**

*Təşkilat: Mingəçevir Dövlət Universiteti*
*Rekvizitlər:*
*Mingəçevir Dövlət Universiteti*
*VÖEN 2700208321*
*h/h AZ15AİİB33080019442905187129*
*Kapital bank Mingəçevir*
*Kod 200297*
*VÖEN 9900003611*
*M/H AZ37NABZ01350100000000001944*
*SWİFT AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 % həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*7. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*8. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilində tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 22 avqust 2018-ci il tarixə qədər, tender təklifi və bank təminatı isə möhürlənmiş ikiqat zərfdə 06.09.2018-ci il saat 11.00-a qədər Mingəçevir şəhəri, D.Əliyeva küç., 21 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olmuş zərflər açılmadan geri gaytarılacaqdır.

İddiaçıların təklifləri 07.09.2018-ci il tarixdə Mingəçevir şəhəri, D.Əliyeva küç., 21 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

## BİLDİRİŞ

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi dəftərxana və təsərrüfat mallarının kotirovkalar sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (+994 12) 498 05 16 (daxili 2 27) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Əlaqələndirici şəxs: Şirinov Kamil

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 01.08.2018-ci il saat 18:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Bakı şəhəri, Üzeyir Hacıbəyov küç, Hökumət evi, 7-ci mərtəbə.*

---

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

*dəftərxana ləvazimatlarının satınalınması məqsədilə*

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər *www.acsc.az* səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2018-ci il iyulun 31-i saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

---

## ELAN

Respublika qəzetinin 02 iyun və12 iyun .2018-ci il tarixli nömrəsində dərc olunmuş Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Nəqliyyat vasitələri" alınması açıq tenderi ləğv olunmuşdur.

---

## Gəncə Şəhər Səhiyyə İdarəsi

Gəncə şəhər Səhiyyə İdarəsi tərəfindən 24 iyun 2018-ci il tarixdə LOT-3 üzrə Əsaslı təmir işlərinin görülməsinin satınalınması üçün elan edilmiş açıq tender heç bir iddiaçı sənəd təqdim etmədiyindən baş tutmamışdır.

---

**ALLAH RƏHMƏT ELƏSİN**

**Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəhbərliyi və kollektivi Salman Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin Sənədlərin Nəşri və İstifadəsi şöbəsinin müdiri Cavid Məmmədliyə, anası SƏDAQƏT xanımın vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**

---

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.



● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
İlham PƏNAHOV

● Çapa imzalanmışdır
23.07.2018